

# Günün siyasi nəbzi





# Laçın Beynəlxalq Hava Limanı inkişafa, tərəqqiyə töhfə verəcək

*Ölkəmizdə quruculuq, inkişaf, işğaldan azad edilmiş ərazilərimizin bərpası dövrü uğurla davam edir. Düşmənin yer üzündən sildiyi şəhərlər, kəndlər yenidən qurulur, keçmiş məcburi köçkünlərin əzəli yurd yerlərinə qayıdışı istiqamətində mühüm addımlar atılır. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində şəhər və kəndlərin bərpası ilə yanaşı, telekommunikasiya şəbəkələri qurulur, iqtisadiyyatın dinamik inkişafının əsas istiqamətlərindən biri olan yeni avtomobil, dəmir yolları, hava limanları tikilib istifadəyə verilir. Bu gün respublikamızda fəaliyyət göstərən beynəlxalq hava limanlarından 3-ü işğaldan azad olunmuş ərazilərdə yerləşir. Qısa zaman ərzində 3 beynəlxalq statuslu hava limanının tikilməsi dövlətimizin iqtisadi gücünün göstəricisidir. Füzuli, Zəngilan və Laçın hava limanları təkcə səmərəli nəqliyyat xidmətləri göstərməyəcək, həm də ölkə turizmini və ticarət əlaqələrini də stimullaşdıracaq ki, bu da nəinki həmin bölgələrin, ümumilikdə regionun inkişafına müsbət təsir edəcək.*

Strateji, iqtisadi və regional əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb edən Laçın rayonunun bərpası, eyni zamanda ölkə başçısının işğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən biri olan Laçın Beynəlxalq Hava Limanının tikintisi ətraf rayonların da inkişafına müsbət təsir göstərəcək. Yüksək dağlıq ərazidə yerləşən Laçın Beynəlxalq Hava Limanı işğaldan azad edilmiş ərazilərdə 3-cü aeroportdur. İnşası davam edən hava limanının qısa zamanda istifadəyə verilməsi üçün işlər sürətləndirilib, həmçinin aeroportun hava hərəkətinə nəzarət sistemi ilə təchiz edilməsinə dair müqavilə imzalanıb.




Laçın rayonunun Qorçu kəndində, dəniz səviyyəsindən 1800 metr hündürlükdə inşa edilən, bütün növ, o cümlədən ağır yük təyyarələrini qəbul edə biləcək Laçın aeroportu mühüm strateji əhəmiyyətə malikdir. Təməli 2021-ci ildə qoyulan, enmə, qalxma zolağının uzunluğu 3 kilometr olan hava limanında ICAO və IATA standartlarına uyğun uçuşlar həyata keçiriləcək, burada 6 təyyarə dayanacağı olacaq. Beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5 min kvadratmetrdir. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə də gediş-gəlişi asanlaşdıracaq. 2021-ci il avqust ayının 16-da Laçın Beynəlxalq Hava Limanının təməlini qoyan Prezident İlham Əliyev demişdir: "Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq". Ölkə başçısı həmçinin Laçında hava limanının açılmasının iqtisadi baxımdan böyük əhəmiyyət kəsb etdiyini və beynəlxalq statuslu bu hava limanının bölgəyə xarici turistlərin gəlməsinə geniş imkanlar yaradacağını vurğulayıb. Laçın rayonunun füsunkar mənzərələri arasında yerləşən Laçın Beynəlxalq Hava Limanının strateji mövqedə yerləşməsi turizm sahəsi ilə yanaşı, kənd təsərrüfatı və sənayenin inkişafı üçün geniş imkanlar yaradacaq, həm də yüklərin daşınmasını asanlaşdıracaq. Hava limanının müasir sərnişin və yükdaşıma imkanlarına malik olması respublika daxilində, eyni zamanda qonşu ölkələrlə əlaqələri gücləndirəcək, ticarət və mədəni mübadilələri təşviq edəcək. Hava limanı regionun qlobal aviasiya şəbəkəsinə qoşulmasında, sərnişin və yüklərin səmərəli daşınmasında mühüm rol oynayacaq ki, bu da öz növbəsində iqtisadi inkişafı yüksəldəcək.

Postsovet məkanında ən yüksək dağlıq ərazidə yerləşən, saatda 200 sərnişinə xidmət edə biləcək Laçın Beynəlxalq Hava Limanının tikintisi sürətlə aparılır. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun Xankəndi şəhərində keçirilən növbəti iclasında Qrupun rəhbəri Rəhman Hümmətov bildirib ki, hazırda Laçın hava limanının tikintisi üzrə işlərin 65 faizi icra olunub.

İşğaldan azad olunmuş Şərqi Zəngəzur və Qarabağ yenidən qurulur, o cümlədən bu bölgələrdə beynəlxalq uçuşların həyata keçirilməsi məqsədilə aeronaviqasiya təminatının bərpası üzrə intensiv işlər aparılır. Ölkəmizdə inkişafın, tərəqqinin ən bariz nümunələrindən olan Zəngilan, Füzuli və Laçın hava limanları mülki aviasiyamızın inkişafı ilə yanaşı, həm də faydalı əməkdaşlığa töhfə verəcək.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**